# İlahiyyat sahəsində savadlı, bilikli kadrlara hər zaman ehtiyac var



Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Müsəlman Ağsaqqalları Şurası, BMT Ətraf Mühit Proqramı (UNEP) və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransı (COP29) çərçivəsində 5-6 noyabr tarixlərdə keçirilən Dini Liderlərin Qlobal Bakı Sammitində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə cəfərilərinin rəhbəri Səlahaddin Özgündüz Azərbaycan İlahiyyat İnstitutunu (AİI) ziyarət edib, ali təhsil müəssisəsinin tələbə və müəllim kollektivi ilə görüşüb.

AİI rektoru, dosent Aqil Şirinov görüşdə çıxış edərək Səlahaddin Özgündüzü AİI-də görməkdən məmnun olduğunu bildirib, qonağa ali təhsil müəssisəsi haqqında məlumat verib. Türkiyə-Azərbaycan qardaşlığının əbədi olduğunu vurğulayan A.Şirinov tarixin bütün dövrlərində xalqlarımızın bu məqama şahidlik etdiklərini diqqətə çatdırıb.

İnstitutun rəhbəri Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi zamanında qardaş Türkiyə xalqının və dövlətinin göstərdikləri mənəvi dəstəyi xüsusi qeyd edib. Rektor, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluğunun dövlətlərimiz arasında əlaqələrin inkişafında əvəzsiz rol oynadığından bəhs edib.

Rektor daha sonra "Dünya dinləri "yaşıl planet" uğrunda" şüarı altında keçirilən Dini Liderlərin Qlobal Bakı Sammitinin ölkəmizdə təşkil olunmasının əhəmiyyətindən danışıb. Səlahaddin Özgündüz çıxışında vurğulayıb ki, ilahiyyat sahəsində savadlı, bilikli kadrlara hər zaman ehtiyac olur. İctimai elmlərin və xüsusən də ilahiyyatın əhəmiyyətinə diqqət çəkən qonaq qeyd edib ki, müasir dünyanın mənəvi problemlərinin həlli sahəsində səylə çalışacaq ziyalılara, ilahiyyatçılara, mütəfəkkirlərə, cəmiyyətin önündə gedən insanlara tələbat var. O, XXI əsrdə islami elmlərdə dərin araşdırma aparacaq ziyalıların yetişdirilməsinin zəruri olduğunu vurğulayıb.

S.Özgündüz Azərbaycan İlahiyyat İnstitutunda məzhəblərüstü tədrisin əhəmiyyətini diqqətə çatdırıb, tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 noyabr (№ 245).- S.12.